| | |
|---|---|
| Dövlət qeydiyyatına alınmışdır: | Təsdiq edirəm: |
| **Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi** | **Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi** |
| **Qeydiyyat № ___** | **Əmr № 47** |
| "17" may **2004-cü il** | " 12 " may **2004-cü il** |
| Nazir F.F.Məmmədov | Sədr K.S.İmanov |

# İnteqral sxem topologiyalarının dövlət qeydiyyatı üçün iddia sənədinə daxil olan material və sənədlərin forma və məzmununa dair TƏLİMAT

## 1.Ümumi müddəalar

1.1. Bu təlimat "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa və "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlələr barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 mart tarixli 36 nömrəli qərarına uyğun olaraq hazırlanmışdır və inteqral sxem topologiyalarının dövlət qeydiyyatı üçün iddia sənədinə daxil olan material və sənədlərin forma və məzmununa dair qaydaları müəyyən edir.

1.2. Topologiya onun qorunduğu müddətdə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində (bundan sonra, bu mətndə **"Agentlik"**) könüllü olaraq dövlət qeydiyyatından keçirilə bilər.

1.3 Hüquqi qorunma orijinal topologiyalara şamil olunur və Agentlik yalnız orijinal topologiyaları qeydiyyatdan keçirir.

## 2. Topologiyanın qeydiyyatı üçün iddia sənədinə daxil olan material və sənədlərin forma və məzmununa dair tələblər

2.1. Topologiyanın dövlət qeydiyyatı üçün iddia sənədi-topologiyanın qeydiyyatı barədə müvafiq sənədlər toplusudur.
2.2. İddia sənədinə aşağıdakılar daxildir:
- ərizə;

- inteqral sxem topologiyasını eyniləşdirən materialların ifadə formasından biri (rəsm, çertyoj, foto, topologiyanın özü referatla birlikdə);
- dövlət rüsumunun ödənilməsi barədə qəbz;
- iddia sənədi təmsilçi tərəfindən təqdim edildiyi halda, onun səlahiyyətini təsdiq edən sənəd.

2.3. Əgər iddia sənədinə başqa dildə sənəd qoşulmuşdursa, onda həmin sənədin Azərbaycan dilinə tərcümə olunmuş və müvafiq qaydada təsdiqlənmiş variantı da əlavə edilməlidir.

2.4. Topologiyanın müəllifi, topologiyaya müstəsna hüquq sahibi, yaxud onların nümayəndələri (Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri olan hüquq sahibləri; topologiyanın hüquq sahibləri olan və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər; Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələrə əsasən başqa dövlətlərin fiziki və hüquqi şəxsləri; bu bənddə göstərilən şəxslərin varisləri, müqavilə ilə müstəsna əmlak hüququnu almış şəxslər və ya onların rəsmi nümayəndələri) topologiyanı qeydiyyatdan keçirə bilərlər.

2.5. İnteqral sxem topologiyalarının qeydiyyatı üçün ərizə Agentlik tətərəfindən müəyyən olunmuş forma üzrə doldurulur və topologiyanın qeydiyyatına aid olan bütün zəruri məlumatları özündə əks etdirir (Əlavə 1).

Əgər hər hansı məlumatı "Ərizə"nin müvafiq qrafasında yerləşdirmək mümkün deyildirsə, onda bu məlumatlar həmin forma üzrə ərizənin müvafiq qrafalarında **"bax, əlavə vərəqdə"** sözləri qeyd olunmaqla əlavə vərəqdə yerləşdirilir.

2.6. **"Ərizə"** sözünün üstündə yerləşən qrafalar sənəd Agentliyə daxil olandan sonra rekvizitlərin qeyd edilməsi üçün nəzərdə tutulmuşdur və iddiaçı tərəfindən doldurulmur.

2.7. Ərizənin "**İnteqral sxem topologiyasının adı**" qrafasında ərizəyə qoşulmuş topoligiyanı eyniləşdirən sənədlərə uyğun olaraq onun tam və dəqiq adı göstərilir.

2.8. **"Müstəsna hüquq sahibi"** qrafasında hüquq sahibinin adı (fiziki şəxs olduğu halda soyadı, adı və atasının adı), ünvanı və digər zəruri rekvizitlər tam göstərilməlidir. Hüquq sahibi topologiyanın müəllifi olmadığı təqdirdə, hüquqların tam keçməsi haqqında sənədin adı, nömrəsi, tarixi və onu təsdiq edən təşkilat haqqında məlumat verilməlidir.

2.9. **"Müəllif(lər)"** qrafasında müəllif(lər)in soyadı, adı və atasının adı, doğulduğu il, ünvanı, iş yeri və s. göstərilməlidir.

Əgər müəlliflər bir neçə nəfərdirsə, onların hər biri haqqında məlumatlar göstərilməlidir.

2.10. **"Yazışma üçün ünvan"** qrafasında iddiaçının ünvanı, soyadı, adı, atasının adı, telefon və faks nömrələri, elektron ünvanı (əgər varsa) göstərilir. (Müəllif müstəsna hüquq sahibi olmadığı halda, onun rekvizitləri ayrıca göstərilir).

2.11. **"Əgər topologiyadan istifadə edilibsə, istifadə olunduğu ilk tarix və yer"** qrafasında topologiyanın, yaxud bu topologiyaya əsaslanan inteqral sxemin ilkin istifadə tarixi (gün, ay, il), qeydiyyata alındığı tarix (gün, ay, il) və təsərrüfat dövriyyəsinə buraxıldığı ölkənin adı göstərilir.

Topologiyadan istifadəyə müstəsna hüququn fəaliyyət müddətinin başlandığı bu tarixlərdən ən əvvəlincisi ilə müəyyən olunur.

2.12. **"Ərizəyə qoşulan topologiyanı eyniləşdirən və depozitə götürülən materiallar (rəsm, çertyoj, foto, inteqral sxem özü referatla birlikdə)"** qrafasında

ərizəçi tərəfindən qeydiyyat üçün təqdim edilən topologiyanın forması göstərilir.

2.13. **“Ərizəyə əlavə edilən sənədlər”** qrafası müvafiq xanalarda “X” işarəsi qoyulmaqla doldurulur.

2.14. İki və daha artıq iddiaçı tərəfindən qeydiyyat üçün sənəd təqdim edilərkən, ərizə blankı onların hər biri tərəfindən imzalanır, yazışma isə onların vəkil etdikləri şəxslə ərizənin mövcud qrafasında göstərilən ünvanla aparılır.

Ərizə hüquqi şəxsin adından təqdim edilərkən, soyadı, adı, vəzifəsi göstərilməklə təşkilatın rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiqlənir.

2.15. Qeydiyyat üçün topologiyanı eyniləşdirən ifadə formasından (rəsm, çertyoj, foto və yaxud inteqral sxem topologiyasının özü referatla birlikdə) biri təqdim olunmalıdır. Həmin ifadə formaları rəsm və çertyojdursa bu forma A4 formatlı albom vərəqində əks olunmalı, fotolar isə 9x12 ölçülü və rəngli olmalıdır. Topologiyanın özü onun müfəssəl elmi izahı verilmiş 1-2 səhifəlik referatla birlikdə təqdim edilməlidir. Referatın hər bir səhifəsi 1,5 intervalla “14 ölçülü” 28 sətirdən ibarət olmalıdır.